*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   3 avqust 2019-cu il   № 60 (2377)   Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

# Könüldən könülə yollar görünür



*Digər ziyarətçilərin kimi məni də həmişə səngərdən döyüş əzminizlə, qələbə ruhunuzla uğurlayırsınız, Azərbaycan əsgəri. Hardan gözüm gözünüzdən uzaq olsa da, ruhum ruhunuzdan iraq olmayıb. Bu, sizə ehtiramın, sevginin qüdrətidi. Sən də bilirsən ki, könüldən könülə yollar var və bu yollar xatirələr yoludu, təəssüratlar yoludu, arzu, murad, niyyət yoludu, inam, etibar, sədaqət yoludu. O yol sən açan yoldu, sənin yolundu... Bu yol döyüşlərdən keçəcək, Böyük Qələbəylə tamamlanacaq...*

Yeniyetməliyimdə də, gəncliyimdə də, mənə elə gəlib ki, dağa mətərislənənin, dağa söykənənin özünə inamı da artır, gücü də. Sənin də belə düşündüyünə zərrəcə şübhəm yoxdu. Sən tarixlər yazmış, tarixlər yazan qəhrəmanların banisisən. Yaşanılmış tarixlər məni qınamasa deyərdim ki, sənin yazacağın tarix daha möhtəşəm olacaq.

Mən də sizlər kimi dağ mehrliyəm. Dağ mehrli olduğumuza görədir ki, dağ vüqarlı ifadəsi düşüncələrimizin səmtini, axarını qəhrəmanlığa, qəhrəmanlığın mahiyyətinin dərkinə, qavrayışına yönəldilib.

Dağa baxırıq - könlümüz açılır, dağ vüqarlıları - sizi görürük - ürəyimiz tellənir...

Sizi Böyük Qələbənin əsgəri bilənlərə xitabən deyirəm ki, dağ vüqarlıların, əhatəsində olanda adama elə gəlir ki, dağ kəlməsi təkcə ucalıq bildirmir, həm də yenilməzlik deməkdi.

Ön xətdə ezamiyyətdə olanda bütün söhbətlər Vətən, torpaq, qələbə, Böyük Qələbə kəlmələrində cəmləşir. Bu cəmləşmə mahiyyətiylə dağ vüqarlı ifadəsinin də yozumuna vasitə olur.

Ön xətdə ezamiyyətdəyəm.

Zabit Rüstəm Məmmədovla "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!", - deyənlərdən dağa - ucalığa söykənib ucalığı, müqəddəsliyi qoruyanlardan danışırıq. "Müqəddəsliyi qorumaq qədər müqəddəs vəzifə yoxdu", - deyirəm. Zabit hiss edilməsi çətin olmayan qürurla deyir ki, hərbi xidmət belə müqəddəs vəzifələrdəndir. Zabit onu da deyir ki, bu müqəddəs vəzifə nəyə qadir olduğunu 2016-cı ilin aprelində möhtəşəmliklə təsdiqlədi. O vəzifə böyük qələbə qazandı. O qələbəni nə biz unudacağıq, nə də düşmən unudacaq. Biz böyük qələbə qazandıq, Böyük Qələbəni də qazanacağıq. Düşmən ağır məğlubiyyətə uğradı. Birdəfəlik məğlub olacağı günə də az qalıb. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə torpaqlarımız işğaldan azad ediləcək.

Dağlıq massivdə, dağlar arasında, dağlarda dağ vüqarlılara zabit Rüstəm Məmmədovla bayaqkı söhbətimizi, söhbətimizin mahiyyətini xatırladıram. Zabit Çingiz Mahmudov deyir ki, 2016-cı ilin aprelində Azərbaycan Ordusu hissələrinin qazandığı qələbənin əhəmiyyətini təkcə hərbi dəyəriylə məhdudlaşdırmaq olmaz, bu qələbə həm də düşmənin gücsüzlüyünü ona arxalananlara görk elədi.

**(Ardı 2-ci səhifədə)**



Vətən sevgisindən güc alırıq biz!

4-cü səhifədə



"Konflikt jurnalistikası məktəbi"nin çöl təlimləri sona çatdı

5-ci səhifədə



Azərbaycan əsgəriyik...

6-cı səhifədə



Yaxşı dost ömrü gözəlləşdirir

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Qəzaya uğramış hərbi təyyarənin axtarışına türkiyəli mütəxəssislər cəlb edilib

*İyulun 24-də təlim-məşq uçuşları zamanı qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin axtarışı üzrə keçirilən əməliyyatlara müasir sualtı robotlar və digər avadanlıqlar, o cümlədən xarici mütəxəssislər və peşəkar dalğıclar cəlb olunub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əməliyyatlara əlavə qüvvələrin qatılması məqsədilə Türkiyə Respublikasının aidiyyəti qurumlarına da müraciət olunub və yaxın zamanda onların mütəxəssislərinin ölkəmizə gəlməsi gözlənilir.

Eyni zamanda, həyata keçirilən əməliyyatın əhatə sahəsi genişləndirilərək ölkəmizin aidiyyəti qurumlarının xeyli sayda gəmi, kater və aviasiya vasitələri də axtarışlarda daim iştirak edirlər.

Qeyd edək ki, qəza baş verən andan bu günədək davam edən küləkli əlverişsiz hava şəraitinə baxmayaraq Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiyanın rəhbərliyi altında axtarış əməliyyatları hazırda da intensiv aparılır.



İyulun 31-də Bakıya gələn Türkiyə Respublikasının aidiyyəti qurumlarının xüsusi avadanlıqlar və qurğularla təchiz edilmiş mütəxəssisləri təlim-məşq uçuşları zamanı qəzaya uğramış hərbi təyyarənin axtarışı üzrə keçirilən əməliyyatlara cəlb olunub.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**1 avqust 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 17 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**2 avqust 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Könüldən könülə yollar görünür



**(Əvvəli 1-ci səhifədə)**

- Qələbə ilə nəticələnən o döyüşlər xalqımızın ordumuza inamını daha da artırdı. Bu, müharibə şəraitində olduqca vacib amillərdəndir. Xalqın orduya bu səviyyədə inamına, güvəncinə ordu quruculuğunda əldə edilən uğurların nəticələrindən biri deyə bilərik.

- Sizcə, bu uğurlar hardan qaynaqlanır?, - soruşuram.

Zabit mahiyyəti ordu quruculuğunu şərtləndirən sualı həvəslə cavablandırır. Aldığım cavabı təkcə Çingiz Mahmudovun deyil, ümumən Azərbaycan Ordusunun zabitlərinin hərbi xidmətə də, hərbi xidməti şərtləndirən hərbi məsuliyyətə də sayğısı bilirəm:

- Dövlətin ordusunu prioritet elan etməsindən, ordu quruculuğunun dönməzliyindən, xalqın orduya inamından, ordunun xalqa arxalanmasından, həyata keçirilən irimiqyaslı islahatların nəticələrindən, genişmiqyaslı təlimlərdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi prosesindən, döyüş hazırlığını tamamlayan mənəvi hazırlıqdan, ordunun böyük məsuliyyətlə yerinə yetirdiyi missiyadan. Bu uğurlar sabahkı uğurların başlanğıcıdır.

- 2016-cı ilin aprelində qazanılan qələbə Azərbaycan Ordusunun qüdrətini təsdiqlədi, - zabit İsaq Orucov belə deyir və fikrini olduqca həssas bir məqamla tamamlayır: - Xalq bu qüdrətə dönməzliklə inandı, əmin oldu ki, ordumuz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcək. Yəni 2016-cı ilin Aprel zəfəri həm də ordu-ictimaiyyət münasibətlərinin dönməzliyini, etibarlığını, etimadlığını ali səviyyədə formalaşdırdı.

- Bu, müharibə şəraitində olduqca vacib amillərdəndir, - deyirəm.

Zabit əsgərlərə baxır. Sevgi var, rəğbət, ehtiram var, bir də sədaqətə məsuliyyət, məsuliyyətə sədaqət var bu baxışlarda. Mənə də tanış baxışlardı. Bu biçim baxışları ön xətdə - səngərlərdə çox görmüşəm. Onların çoxunu könüldən könülə düşən yolların davamı bilmişəm...

Əsgərlərin baxışlarında munis bir ehtiram sezilir. Belə ehtiramlar ancaq xalqa ünvanlana bilər, bir də ömrünü xalq üçün, Vətən üçün, dövlət, dövlətçilik üçün yaşayanlara. Bu biçim ehtiramları "Açıq qapı" günlərində ictimaiyyətin nümayəndələrində də müşahidə etmişəm. Belə ehtiramların qarşılıqlı olması ürəyimi dağa döndərir. Zabit məhz bu məqama istinadən deyir ki, xalqın orduya inamı, güvənci ordu quruculuğunun tərkib hissələrindən biri kimi dəyərləndirilir. Ordu-ictimaiyyət münasibəti ilə ictimaiyyət-ordu münasibəti biri digərinin həm şərtidi, həm də nəticəsi. Bu münasibətlər müharibə şəraitində mənəvi amil olsa da, mahiyyəti, mahiyyətinin xarakteri silah gücündədi.

- Müharibə şəraitində xalqın inamı daha güclü silah olur, - deyirəm. Zabit baxışlarını əsgərin məzmunlu baxışlarından üzmədən, "Elədir", - deyir.

Əsgərlərlə söhbətləşmək məqsədilə bura gələnəcən düşüncələrimin bürüncəyi olan fikri xatırladıram:

- Dahi Səməd Vurğunun "Vaqif" dramını yəqin ki, hamınız oxuyubsunuz. Əsərdə bir beyti xatırlayaq:

Gözüm gözünüzdən
uzaq olsa da...

Əsgər İzzət Qafarlı səbirsizliklə misranı tamamlayır:

Könüldən könülə
yollar görünür.

Hiss edilir ki, bu misranı əsgərlərin hamısı bilir.

- İzzətin dediyi, sizin də bildiyiniz bu misra bütün jurnalistlərin sırasında "Azərbaycan Ordusu" qəzetinin əməkdaşlarının ümumi səmimi etirafıdı. Başlanğıcı bizim könlümüz olan bu ehtiram, inam, etibar sevgi yolunun sonu sizin könlünüzdü. Biz bu yolun yolçusu olmaqla vəzifə borcumuzu yerinə yetiririk. 2016-cı ilin aprelində könüldən könülə düşən yollar o qədər nurlu, o qədər işıqlı, o qədər baxımlıydı ki!, - deyirəm.

Zabit Çingiz Mahmudov qürurla deyir ki, o yol ordu ilə ictimaiyyətin, vahidlik, həmrəylik yolu, qələbə yolu olduğu üçün belə idi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Yusif Nağıyev deyir ki, könüldən könülə düşən yolun cəfakeşi olmalısan, yoxsa o yol yolluğunu itirər. Könüldən könülə düşən yolun qayğısına qalmalısan. Həqiqi hərbi xidmətdə olanda əsgər yoldaşlarımla yaranan şirin münasibət dostluğa çevrildi. Bu dostluğu məsuliyyətlə, cəfasına qatlaşmaqla tərxis olunduqdan sonra da yaşadırıq. Dostluq könüldən könülə düşən yoldu.

Həzin-həzin meh əsir. Ağacların xırdaca budaqlarından, yarpaqlarından sürüşüb düşən yelin səmti dağlaradı. Yay gününün istisi bir əsimlik yel qədərincə azalıb. Söhbətin şirinliyindən bu azalmanı bayaqdan bəri hiss etməmişik. Zabit İsaq Orucovun baxışlarını səmimi bir təbəssüm bürüyüb. Gülümsünür - mətləbli gülümsəmədi:

- Jurnalistlərlə söhbətləşəndə səngərin abu-havası nisbətən dəyişir. Qışda isinir, yayda sərinləyir.

Zabitin dediyi kəlmələr qulağa da xoş gəlir, könülə də. Səmimiyyətlə eşitdiklərimə səmimiyyət işığı düşsün deyə: "Könlümüzdən könlünüzə düşən yolları həmişəki kimi bundan sonra da urvatlı tutacağıq. Hamımız bilirik ki, Böyük Qələbənin yolları üstə səngər müvəqqəti dayanacaqdı. Ali Baş Komandanın əmriylə döyüşəcəksiniz. Qələbə qazanacaqsınız, sərhədlərimiz daxilində səngər olmayacaq. Böyük Qələbədən sonra xidmət edəcək əsgərlərlə səngərlərdə deyil, sərhədlərdə kəlmələşəcəyik. Onda əsgərlərlə jurnalistlərin söhbəti sərhədlərdə döyüş növbətçiliyi aparılan mövqelərdə olacaq, o söhbətlər mövqelərin abu-havasına şirinlik gətirəcək", - deyirəm və əsgərlərin baxdığı səmtə baxıram. Dağ vüqarlıların çiyinlərindən dağın bir hissəsi görünür, bir hissəsi yox...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə nazirinin müavini bölmələrin qış mövsümünə hazırlığını yoxlayıb

*Müdafiə nazirinin təsdiq etdiyi illik plana əsasən, Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi heyət və hərbi birliyin komandanlığı cəbhəboyu zonada hündür dağlıq ərazi və sərt iqlim şəraitində yerləşən bölmələrdə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər zamanı bölmələrin qışa hazırlıq işlərinin keyfiyyəti, şəxsi heyətin qış mövsümü normalarına uyğun təminatı və təchizatı yoxlanılıb.

Hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanan nazir müavini qış dövrünə zəruri hazırlıq işlərinin görülməsi ilə əlaqədar müvafiq xidmətin daha keyfiyyətli təşkili ilə bağlı Müdafiə nazirinin tələblərini vəzifəli şəxslərə çatdırıb və konkret tapşırıqlar verib.

## Cəbhəboyu zonada yerləşən hərbi hissələrdə təlim-metodiki məşğələlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, cəbhəboyu zonada yerləşən hərbi hissələrdə və ön xətt bölmələrində komandir-rəis heyəti ilə ideoloji iş və mənəvi-psixoloji təminatın, eləcə də hərbi intizamın möhkəmləndirilməsi sahəsində işin səmərəliliyinin artırılması məqsədilə təlim-metodiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, keçirilən məşğələlərdə və aparılan müzakirələrdə komandir-rəis heyətinə ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində rəhbər sənədlərin hazırlanması, həmçinin onların icrası ilə bağlı nəzəri və praktik köməklik göstərilib.

Cinayət və digər hadisələrin qarşısının alınması məqsədilə profilaktik tədbirlərin effektivliyinin artırılması üçün müvafiq tövsiyələr verilib.

# "Dəniz kuboku-2019" müsabiqəsinin iştirakçıları yarışlara hazırdır

*Müasir dövrdə dünyada cərəyan edən hadisə və proseslər planetimizin siyasi mənzərəsini formalaşdırır və geosiyasət anlayışının əhatə dairəsini daha da genişləndirir. XX əsrin sonlarından etibarən beynəlxalq arenada yeni güc mərkəzlərinin formalaşması, dövlətlərarası əlaqələrin fərqli aspektdə inkişafı yeni dünya nizamının yaranmasına, dünyəvi əhəmiyyətli problemlərin meydana çıxmasına səbəb oldu. Qloballaşan dünyanın ən mühüm, həssas nöqtələrindən birində yerləşən Azərbaycan da istər-istəməz bu reallığa qoşuldu.*

Artıq bu gün Azərbaycan regionun geostrateji rolunda aparıcı ölkədir, regional layihələrin əsas təşəbbüskarı və iştirakçısıdır. Bu isə nəticədə yeni geosiyasi əhəmiyyətə malik olan Azərbaycanın regionda liderliyinin qorunub saxlanılmasına imkan yaradan strateji addımların atılmasını vacib edir. Azərbaycan digər dövlətlərlə əməkdaşlıq etməyə, o cümlədən hərbi əməkdaşlıq etməyə hazır ölkə kimi öz loyallığını qoruyub saxlayır. Bu amil istər regional, istərsə də qlobal miqyasda cərəyan edən hadisə və proseslərə ölkəmizin aktiv şəkildə cəlb olunması imkanı yaradır. Azərbaycan özünün geoiqtisadi, hərbi-geostrateji və təhlükəsizlik maraqlarını, milli maraq və mənafeyinin qorunmasına xidmət edən strateji konsepsiyasını dövrün reallıqlarını nəzərə alaraq formalaşdırır.



Azərbaycan bu konsepsiyanı formalaşdırarkən güclü ordu ilə güclü dövlət anlayışının vəhdət təşkil etməsini xüsusilə diqqət mərkəzində saxlayır. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu vardır. Azərbaycan Ordusu Ümummilli Liderimizin uzaqgörən və xilaskarlıq fəaliyyətinin bəhrəsi kimi daim inkişaf edir, möhkəmlənir.

Bu gün Azərbaycan Ordusunun inkişafının strateji istiqamətlərinin müəyyənləşdirilməsində beynəlxalq əməkdaşlıq amili də mühüm yer tutur. Onun nəticəsidir ki, Azərbaycan Ordusunun şəxsi heyəti beynəlxalq sülhyaratma missiyasında yaxından iştirak edir, eyni zamanda, beynəlxalq əhəmiyyətli hərbi təlimlərdə və beynəlxalq ordu oyunlarında yüksək səviyyədə təmsil olunur. Azərbaycan Ordusunun bu tip təlim və oyunlarda iştirakı nəzərdə tutulan vəzifələrin reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu mənada "Beynəlxalq Ordu Oyunları"nın keçirilməsini və ordumuzun bu oyunlarda təmsil olunmasının əhəmiyyətini xüsusi vurğulamağa ehtiyac qalmır. "Beynəlxalq Ordu Oyunları" dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin formalaşması, dostluq və rəqabət gücünün daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yarışların əhəmiyyəti həm də ondan ibarətdir ki, biz Qarabağımızla bağlı həqiqətləri dünyaya çatdırmaq üçün böyük imkan əldə edirik və bütün dünya ordumuzun inkişafını görərək, ölkəmizi etibarlı tərəfdaş kimi qiymətləndirir. Bir sözlə, "Beynəlxalq Ordu Oyunları" yarışları ölkəmizin inkişafını və ordumuzun gücünü nümayiş etdirir. Yarışlar döyüş hazırlığı baxımından da böyük əhəmiyyət daşıyır. Birgə keçirilən bu oyunlar hərbi təlimlərdən də geri qalmır.

Əhəmiyyətini nəzərə alaraq Azərbaycan hərbçiləri bu il də avqustun 3-dən 17-dək 10 dövlətin ərazisində keçiriləcək "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında ölkəmizi təmsil edəcəklər.

Azərbaycan hərbçiləri ölkəmizdə "Dəniz kuboku", Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda təşkil olunacaq "Hərbi-tibbi estafet" müsabiqələrində iştirak edəcək.

Artıq dövlətimiz Xəzər dənizinin Azərbaycana aid hissəsində keçiriləcək "Dəniz kuboku" müsabiqəsinin iştirakçılarını qəbul etməkdədir. Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak etmək üçün Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Manqıstau" raket-artilleriya gəmisi və İran Hərbi Dəniz Qüvvələrinin "Peykan" və "Cövşən" raket katerləri iyulun 30-da Bakıya gəlib.

İyulun 31-də isə Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Mahaçkala" və "Volqodonsk" kiçik artilleriya gəmiləri Bakıya gəlib.




Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov Rusiya HDD-nın Xəzər flotiliyasının nümayəndəsi 1-ci dərəcəli kapitan Sergey Yekimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tərəflər "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsinin təşkilinə dair fikir mübadiləsi aparıblar.

"Dəniz kuboku-2019" müsabiqəsində iştirak etmək üçün Bakıya gəlmiş Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının, İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin və Qazaxıstan Respublikasının Hərbi Dəniz Qüvvələrinin hərbi gəmilərinin heyətləri yarışlara hazırdır.

Müsabiqə zamanı hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyən edəcəklər.

"Dəniz kuboku-2019" müsabiqəsində müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

Avqustun 1-də Bakıda "Dəniz kuboku-2019" beynəlxalq müsabiqəsinin hakimlər komissiyasının təşkilati müşavirəsi keçirilib.

Tədbirdə komissiyanın katibliyi və səhra hakimləri təqdim olunub, fəaliyyətlərə nəzarət edəcək nümayəndələr təyin edilib və texniki komissiyanın tərkibi seçilib.

Sonra səhra hakimlərinin fəaliyyətinə nəzarət edəcək nümayəndələrin və texniki komissiya üzvlərinin baş hakim tərəfindən təlimatlandırılması icra olunub.

İnanırıq ki, bu il də Azərbaycan hərbçiləri "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında ölkəmizi yüksək səviyyədə təmsil edəcəklər. Azərbaycan hərbçilərinə "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi hissədə mədəni-kütləvi tədbir keçirildi

*Hər bir ölkənin gələcəyi onun gəncləri ilə bağlıdır. Gələcəyin qurucuları olan gənclərin vətənpərvər olması ölkənin mövcudluğu və çiçəklənməsi deməkdir. Vətənpərvərlik doğma yurda olan sonsuz məhəbbət, xalqına, millətinə olan bağlılıqdır. Vətənpərvərlik Vətənə olan müqəddəs borcu ödəməkdir, onun uğrunda yeri gələrsə canından keçmək, fədakarlıqlar və qəhrəmanlıqlar göstərməkdir. Vətənə bağlı olan hər kəs dövlətinin, xalqının hər bir uğuruna sevinməli və Vətənini layiqli vətəndaş kimi təmsil etməlidir. Bu günün Vətən müdafiəçiləri olan əsgərlərimizin mənəvi-psixoloji ruhunun yüksəldilməsinə yönəlik hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlərin təbliği məqsədilə ordumuzda silsilə mədəni-kütləvi tədbirlər təşkil olunur.*





Bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Müdafiə Nazirliyi və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə ön xətdə yerləşən bölmələrimizdən birində şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə mədəni-kütləvi tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin nümayəndələri iştirak edirdilər.

Ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət himnimiz səsləndirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Rəhim Rzayev ön xətdə təşkil olunan tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində mühüm rola malik olduğunu vurğuladı və bu tədbirlərin davamlı keçirilməsinin vacibliyini qeyd etdi. Həmçinin rəhbərlik tərəfindən ordumuza göstərilən diqqətdən danışan zabit bildirdi ki, gündən-günə güclənən və müasirləşən ordumuzun dünyanın güclü orduları sırasında olması qürurverici hissdir. Komandanlığın mədəniyyət sahəsində fəaliyyət göstərən orqanlar və müəssisələrlə qarşılıqlı əməkdaşlıq çərçivəsində təşkil olunan tədbirlər və konsert proqramları şəxsi heyətə yüksək əhval-ruhiyyə bəxş etməklə yanaşı, ordu-cəmiyyət mühitinin formalaşmasına da müsbət təsir edir. Qeyd edildi ki, ordu sıralarında xidmət edən gənclərimiz bu gün qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəlmək iqtidarındadır. "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir ordu quruculuğu sahəsində görülən işlər bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ərzində ordu quruculuğu sahəsində görülən əvəzsiz işlər Azərbaycan Ordusunun hərbi potensialını və müdafiə qabiliyyətini xeyli artırıb.Torpaqlarımızın işğal altında olduğu bir vaxtda Azərbaycan Ordusu öz gücünü artırmaqdadır. Əsgərlərimiz öz hərbi biliklərini daha da təkmilləşdirir və daim öz üzərlərində çalışırlar. Bu günümüzün Vətən müdafiəçiləri olan əsgərlərimiz döyüş əmrini səbirsizliklə gözləyirlər.

Sonra Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov qonaqları salamladı və keçirilən tədbirin mahiyyəti barədə məlumat verdi. Zabit bildirdi ki, təşkil olunan bu tədbirlər şəxsi heyətin mənəvi-psixoloji ruhunun, vətənpərvərlik hissinin yüksəlməsinə müsbət təsir göstərir. Zabit, həmçinin mədəni-kütləvi tədbirlərin xalqla ordu birliyinin, həmrəyliyinin möhkəmlənməsində əvəzsiz rolu olduğunu bildirdi və belə tədbirlərin keçirilməsinin əsgərlərə böyük stimul verdiyini qeyd etdi. "Gənc nəslin milli köklərimizə bağlılıq, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması peşəsindən və vəzifəsindən asılı olmayaraq hər bir kəsin qarşısında duran prioritet məsələdir. Bu gün fəxr edilməsi məqam odur ki, hərbi xidmətə çağırılan əsgərlərimizin əksəriyyəti ordu quruculuğundan məlumatlıdır. Çünki, ordumuz hazırki səviyyəsinə çatması üçün çətin, keşməkeşli və şərəfli yol keçmişdir və bu şanlı tarix barədə hər kəs məlumatlı olmalıdır".

Tədbirdə digər çıxış edənlər qeyd etdilər ki, milli-mənəvi şüurun formalaşması istiqamətində təşkil olunan silsilə tədbirlər şəxsi heyətin patriotizm hissinin yüksəlməsinə hesablanıb və bu tədbirlərin təşkili rəhbərlik tərəfindən daim diqqət mərkəzində saxlanılır. Həmçinin çıxış edənlər bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğıdan və müasir ordu quruculuğunda görülən əvəzsiz işlərdən danışdılar. Bildirildi ki, əsgərlərimizlə baş tutan bu görüşlər, onların mənəvi-psixoloji hazırlığının və hərbi vətənpərvərlik hissinin yüksəlməsində böyük rol oynayır. Qeyd edildi ki, bu gün ön xətdə şərəfli və bir o qədər də məsuliyyətli missiyanı yerinə yetirən cəsur əsgərlərimiz xalqımızın əmin-amanlığının, firavan yaşamasının etibarlı təminatçısıdırlar.

Mədəni-kütləvi tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivi şəxsi heyət qarşısında konsert proqramı ilə çıxış etdi.

Sonda tədbirin təşkilində fəal iştirak edənlərə hərbi hissə komandiri adından fəxri fərmanlar təqdim olundu, xatirə şəkilləri çəkildi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Vətən sevgisindən güc alırıq biz!

*Hər bir dövlətin əsas sütunlarından biri onun təhlükəsizliyinin, ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısı olan ordusudur. Bu gün iftixar hissi keçiririk ki, müstəqil Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var. Aprel döyüşləri və Günnüt zəfəri də sübut etdi ki, Azərbaycan Ordusunda kifayət qədər vətənpərvər, Vətəninə, müstəqil dövlətinə sədaqətli əsgərlərimiz, gizirlərimiz və zabitlərimiz var.*

Belə zabitlərdən biri kapitan Fuad Hüseynovla səngərdə tanış oluruq. Zabit bildirdi ki, hər bir ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun ordusu, əsgərinin vətənpərvərlik ruhudur. "Əgər bu ruh yoxdursa, qüdrətdən, Vətənin etibarlı müdafiəsindən danışmağa dəyməz. Qəlbində vətənpərvərlik ruhu hakim olan əsgərin, döyüşçünün qarşısında isə ən müasir silahlara sarılmış düşmən belə tab gətirə bilməz".

Zabit F.Hüseynov onu da qeyd etdi ki, onun üçün zabit adının məsuliyyəti daha böyükdür. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir. Bu peşəni seçən hər bir gənc, ilk növbədə Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir. Ulu öndər Heydər Əliyevin bu barədə gözəl sözləri var: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz Vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas və-



zifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu artırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır".

"Bir zabit kimi seçdiyim peşədən hər zaman qürur duymuşam", - deyə zabit sözünə davam etdi. - Bizlər Vətənin qoruyucularıyıq və müqəddəs vəzifəni yerinə yetiririk. Xalqımız rahat-firavan yaşasın deyə, düşmənə sipər oluruq. Xalqın güvəncindən, Vətən sevgisindən ilham alırıq. Bax, bu hiss ən şərəfli və qürurlu hissdir. Ümummilli Liderimizin də dediyi kimi, müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir. Çünki bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yoludur. Bu yol qəhrəmanlıq yoludur. Sevinirəm ki, mən də bu yolun yolçusuyam. Raqufların, Şirinlərin, Mübarizlərin... yolunun davamçısıyam. Bu gün o qəhrəman oğullarımızın ruhu bizi rahat buraxmır. Torpaqlarımızın işğal altında olduğu bir zamanda xalqımızın oğul və qızlarının qəhrəmanlığı, onların rəşadəti bizi Böyük Qələbəyə - torpaqlarımızı işğaldan azad etməyə səsləyir. Ali Baş Komandanımızın əmrinə əsasən, Azərbaycan əsgəri ilə birgə torpaqlarımızı azad və şəhidlərimizin ruhunu şad etməyə hazırıq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# “Beynəlxalq Ordu Oyunları-2019”







*"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Snayper həddi" müsabiqəsində iştirak edən snayperlərimiz atışların sıxlığı və sərrastlığına nail olmaq məqsədilə silahlardan sınaq atışları yerinə yetiriblər.*

Müsabiqəyə hazırlıq dövründə komandalar yarışların xüsusiyyətləri, keçirilmə şərtləri, atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri, eləcə də poliqonun maddi-texniki bazası ilə tanış olublar.

Püşkatmanın nəticələrinə əsasən 21 ölkədən olan nümayəndələrin iştirakı ilə keçiriləcək müsabiqədə iştirak etmək üçün snayperlər tibbi yoxlamadan keçib və təhlükəsizlik qaydaları ilə tanış olublar.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız onların istifadəsinə verilən döyüş maşınlarına baxış keçiriblər.

Tank heyətləri və texniki dəstək qrupu döyüş maşınlarının mühərrikləri, idarəetmə sistemləri və rabitə vasitələrinin texniki vəziyyətini yoxlayıblar. Komandalar tankın ştat silahından yoxlama atışları da icra ediblər.

Püşkatmanın nəticələrinə əsasən 23 komandanın iştirakı ilə keçiriləcək "Tank biatlonu" müsabiqəsində Azərbaycan tankçıları avqustun 3-də yarışlara başlayacaqlar.

Final estafeti avqustun 17-də keçiriləcək.

* * *

Azərbaycan Ordusunun hərbi həkimləri "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində avqustun 4-dən 15-dək Özbəkistanda keçiriləcək "Hərbi-tibbi estafet" müsabiqəsinə hazırlıq keçirlər.

Dünyanın 10 ölkəsindən olan hərbi həkimlərin iştirak etdiyi müsabiqədə yaralılara ilkin tibbi yardımın göstərilməsi, onların döyüş meydanından təxliyəsi, tibbi müayinəsi və müalicəsi üzrə tapşırıqlar, eləcə də digər epizodlar yerinə yetiriləcək.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Səhra mətbəxi" müsabiqəsində iştirak etmək üçün Moskva şəhərinə gələn Azərbaycanın hərbi aşpazları təlimat alaraq təhlükəsizlik və texniki vasitələrin istismarı qaydalarını öyrəniblər. Hərbi aşpazlarımız, həmçinin qida məhsulları ilə işləməyə buraxılmaları üçün tibbi müayinədən keçiblər.

Avqustun 3-də Alabino poliqonunda dünyanın 10 ölkəsindən olan hərbi aşpazlar milli təamların hazırlanması üzrə ustalıqlarını nümayiş etdirəcəklər.

Hazırda hərbi aşpazlar "Səhra mətbəxi" müsabiqəsinə hazırlıqlarını davam etdirirlər.

Azərbaycanın hərbi aşpazları "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində avqustun 3-dən 15-dək Alabino poliqonunda keçiriləcək "Səhra mətbəxi" müsabiqəsinin püşkatma mərasimində iştirak ediblər.

Dörd mərhələdən ibarət olan müsabiqənin püşkatmasının nəticələrinə əsasən, hərbi aşpazlarımız 1-ci alt qrupda Qazaxıstan və Monqolustan komandaları ilə yarışacaqlar.

Hazırda hərbi aşpazlarımız "Səhra mətbəxi" müsabiqəsinə hazırlıqlarını davam edirlər.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinin püşkatma mərasimi keçirilib.

Püşkatmada iştirak edən artilleriyaçılarımız təhlükəsizlik qaydaları, yarışların xüsusiyyətləri, keçirilmə şərtləri, atəş və döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilmə hədləri, eləcə də poliqonun maddi-texniki bazası ilə tanış olublar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# “Konflikt jurnalistikası məktəbi”nin çöl təlimləri sona çatdı

*Müdafiə Nazirliyinin dəstəyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin həyata keçirdiyi "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsi başa çatdı. Plana əsasən, "N" hərbi hissənin təlim poliqonuna yollanan təlimalanlara təcrübəli zabitlər tərəfindən artilleriyadan, snayperdən, atəş və taktiki hazırlıqdan dərslər keçirildi. Günün ikinci yarısında isə təlimalanlar "AK-74" Kalaşnikov avtomatının təyinatını, taktiki-texniki xüsusiyyətlərini, iş mexanizmini, ondan istifadə qaydalarını, həmçinin sökülüb-yığılmasını da öyrəndilər. Nəzəri bilikləri yaxşı mənimsəyən jurnalistlər avtomatdan uzanaraq, dayaqdan, hərəkətdə və ayaqüstü vəziyyətdə atəş açmağı praktiki olaraq məşq etdilər. Dərsin sonunda normativlər yerinə yetirildi.*



Növbəti dərsdə təlimalanlara taqımın hücum və müdafiə döyüşü zamanı fəaliyyəti praktiki olaraq nümayiş etdirildi. Döyüş atışlı səhnədə təlimalanlar özlərinə əlverişli mövqelər seçərək foto və video materiallar götürdülər.

Döyüş səhnəsi yekunlaşdıqdan sonra hər bir iştirakçı atıcı silahlardan 2-ci təlim atış çalışmasını yerinə yetirdi. Təlimçilər tərəfindən nəticələr qeydə alınaraq qiymətləndirildi.

Günün sonunda düşmənlə təmas xəttində yerləşən kəndlərin birində əhali ilə çay masası arxasında görüş keçirildi. Sakinlərlə ünsiyyət zamanı bölgədə baş verən hadisələr barəsində məlumatın toplanılması qaydaları haqqında geniş müzakirələr aparıldı. Günün yekun iclasında təlimalanların gün ərzində dərslər zamanı fəaliyyəti qiymətləndirildi, götürülən normativlərin nəticələri açıqlandı. İmitasiya olunan döyüş səhnəsi zamanı jurnalistlərin fərdi şəkildə topladıqları foto və video materiallar izlənildi, buraxılmış nöqsanlar müzakirə olundu.

Təlimlərin sonuncu günündə jurnalistlərə mühəndis-istehkam bölməsində dərslər təşkil olundu. Düşmənin piyadalarına, döyüş maşınlarına qarşı qurulan partlayan və partlamayan mühəndis maneələrindən danışıldı. Təşkil olunan auditoriya və çöl dərslərində zabitlər Turqut Məmmədov, Elvin Fərəcov, Tural Tağıyev mühəndis maneələrindən nəzəri və praktiki dərslər keçdilər. Zabitlər piyada və tank əleyhinə minalardan, dəniz və nüvə minalarından danışaraq onların təyinatını, təsir sahəsini və onlardan qorunmağın yollarını izah etdilər. Minaların maketləri üzərində tədris olunan dərsdə minaların növlərindən və xüsusiyyətlərindən geniş məlumat verildi.

Günün ikinci yarısında "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsinin yekunu keçirildi. Yekun iclasda iştirak edən polkovnik Babək Səmidli birlik komandiri adından təlim iştirakçılarını salamladı, təlimlərdə fəallıq və əzmkarlıq göstərərək çöl-meşə təlimlərini uğurla başa vurduqlarına görə onları təbrik etdi. Gənc jurnalistlərə gələcək yaradıcılıqlarında uğurlar arzulayaraq, birlik komandiri adından təlim müddətində xüsusi



fərqlənən iştirakçılara hədiyyələr təqdim etdi.

Layihə rəhbəri Əlisəfa Mehdiyev çıxış edərək "Konflikt jurnalistikası məktəbi"nin builki çöl təlimlərinin də uğurla başa çatdığını bildirdi. Komandanlığa və təlim müddətində göstərdikləri qayğıya görə hərbi hissənin kollektivinə təşəkkürünü bildirdi. Zabit peşəsindən söz açaraq, bu şərəfli peşə sahiblərinin hər bir vətəndaş üçün güvənc yeri olduğunu diqqətə çatdırdı. "Zabitlər Vətənin qoruyucularıdır. Bu peşənin sahibləri əsasən sərhədlərdə və səngərlərdədirlər. Zabitin çiynindəki cavabdehlik yükünü heç bir peşənin məsuliyyəti ilə müqayisə etmək mümkün deyil. Zabit peşəsi qəhrəmanlıq və yüksək əxlaqlılıq tələb edir. Onun kökündə yurda sevgi və sədaqət, xilaskarlıq, fədakarlıq, özünü qurban verməyə hazır olmaq və lazım gələrsə layiqli ölmək durur. Zabit peşəsi təmənnasız peşədir. Onlar üçün ən uca varlıq - Vətəndir. O, Yurd uğrunda müqəddəs xidmət borcuna taleyinin çağırışı kimi baxır. Zabit peşəsi intellektuallıq, qat-qat üstün çeviklik və ayıqlıq tələb edir. Bu peşə kamillik deməkdir. Bir sözlə, bu peşə universal peşədir. Zabit döyüş meydanını müşahidə edəndə coğrafiyaçıdır, hədəfi dəqiqləşdirəndə riyaziyyatçıdır, fizikdir, kimyəvi silahlardan istifadə etdikdə kimyaçıdır, bəşərin savaş ömrünü yaşayan tarixçidir, mərdlik və qəhrəmanlıq salnaməsini düzüb söyləyən ədəbiyyatçıdır, tabeliyindəki şəxsi heyətə pedaqoq-tərbiyəçidir. Zabit bütün bu keyfiyyətləri ilə Vətənin, ölkənin, dövlətin özüdür. Zabit bu dövlətin bayrağıdır. Zabit o vətəndaşdır ki, Vətən yolunda şəhid olur, nəşi bayrağa bükülür. Onlar bizim qürur mənbəyimiz, güvənc yerimizdi. Əziz hərbçilərimiz, göstərdiyiniz qonaqpərvərliyə, diqqətə görə hər birinizə öz adımdan və layihə iştirakçıları adından dərin minnətdarlıq bildirirəm".

Beləliklə, beşinci "Konflikt jurnalistikası məktəbi"nin çöl-meşə təlimləri sona çatdı. Sonda hərbi hissənin kollektivi ilə xatirə şəkli çəkdirildi.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Milli Qəhrəman Aqil Məmmədovun anım mərasimi keçirildi



*Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində şəhid Milli Qəhrəman Aqil Məmmədovun anım mərasimi keçirildi.*

Mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, xüsusi təyinatlı hərbi təhsil müəssisəsinin kursantları, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş oğul və qızlarımızın, şəhid Aqil Məmmədovun xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərasim iştirakçılarının nəzərinə çatdırıldı ki, Azərbaycanın Milli Qəhrəmanı Aqil Məmmədov Qubadlı rayonunda dünyaya göz açıb. 1984-cü ildə Qubadlı rayonunda 2 saylı natamam orta məktəbi bitirdikdən sonra təhsilini 126 saylı Xanlıq texniki-peşə məktəbində davam etdirib. Əmək fəaliyyətinə Qubadlı rayon Avtomobil Nəqliyyatı İdarəsində başlayıb. 1987-ci ildə həqiqi hərbi xidmətə çağırılıb. Aqil Məmmədov 1988-ci ildə Orenburq vilayətində xidmətini yarımçıq qoyaraq doğma yurda qayıdır və Qubadlı rayon özünümüdafiə taboruna qoşulur.

1992-ci il avqustun 7-də Laçın rayonunun Susuzdağ yüksəkliyinə hücum edilməli idi. Hər şey kəşfiyyatçılardan asılı idi. Aqil öz dəstəsi ilə tapşırığı müvəffəqiyyətlə yerinə yetirib geri dönərkən, gözlənilmədən mühasirəyə düşür. O, öz dəstəsini bu çətin vəziyyətdən çıxarmaq üçün müxtəlif yollar düşünür. Onlar düşmənin xeyli canlı qüvvəsini məhv edərək, mühasirəni cəsarətlə yarırlar. O, döyüş dostlarına qarşı tərəfin minalandığını bildirir. Amma tale onun bəxtinə gülmür. Bir qədər getdikdən sonra özü minaya düşərək ağır yaralanır. Çoxlu qan itirdiyinə görə Aqil Məmmədovun həyatını xilas etmək mümkün olmur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli Fərmanı ilə Aqil Məmmədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Mərasimdə çıxış edən Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov bildirdi ki, Vətən torpaqlarının azadlığı uğrunda canlarını fəda edən, müqəddəs şəhidlik zirvəsinə ucalan qardaş və bacılarımızı yad etmək hər birimizin borcudur. “Onların obrazı hər bir azərbaycanlı üçün müqəddəs, məzarları isə ziyarətgah yerimizdir. Öz qanları ilə torpağı al rəngə boyayan şəhidlərimiz son mənzilə də al rəngli Azərbaycan bayrağına bükülərək, silahdaşlarının çiynində yola salınıblar. Onların keçdiyi döyüş yolunu, göstərdikləri qəhrəmanlıqları gənc nəsilə təbliğ etmək çox vacibdir. Azərbaycanın milli atributlarını uca tutmağı, Vətəni sevməyi aşılamaq və xalqımızın dövlətçilik salnaməsini öyrətmək qarşımızda duran başlıca vəzifələrimizdən biridir.”



Sonra tədbir iştirakçılarına Milli Qəhrəman Aqil Məmmədova həsr olunan sənədli film nümayiş etdirildi.



Qubadlı rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haqverdiyev çıxışı zamanı qeyd etdi ki, Qarabağımız uğrunda gedən döyüşlər minlərlə qəhrəman oğullarımızı üzə çıxardı. Müasir tariximizin şanlı səhifələrindən biri də Aprel döyüşləridir. Natiq dedi ki, əsgərlərimizin ayıq-sayıqlığı nəticəsində ermənilərin növbəti təxribatının qarşısı alındı. “Ordumuzun əks həmləsi uzun illərdir ermənilərin öz ordusu və "keçilməz səd" haqqında yaratdığı mifini darmadağın etdi. Düşmən tapdağı altında olan torpaqlarımızın bir hissəsi azad edildi. Aqil Məmmədov kimi oğullarımız adlarını Vətənimizin şanlı səhifəsinə öz qanları ilə yazdılar. Xalqımız hər zaman ordusu ilə birlikdə olduğunu, ordumuz isə daim döyüşə hazır və Ali Baş Komandanımızın hücum əmrini gözlədiyini nümayiş etdirdi.”

Digər çıxış edənlər ordumuzun düşmənə sarsıdıcı zərbələr endirməsindən, Aqil Məmmədov kimi oğullarımızın döyüşlərdə göstərdikləri şücaətdən danışdılar. Aprel döyüşlərinin müasir tariximizin ən uğurlu hərbi əməliyyatlarından biri olduğunu vurğuladılar. Ölkə rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya minnətdarlıqlarını bildirdilər.

Sonra tədbir bədii hissə ilə davam etdi.

Sonda tədbirin təşkilatçıları xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

---

*Hərbi xidmətin əsasını təşkil edən faktorlardan biri sıra hazırlığıdır. Andiçmə mərasimləri və paradlardakı təntənəli keçid sıra hazırlığının bir parçası olub böyüklü-kiçikli hər kəsin maraq və həyəcanla izlədiyi hərbi ritualdır. Keçən il paytaxtımızda təşkil olunan möhtəşəm paradlar bu baxımdan dünya ölkələrinin diqqətini cəlb etməyə bilməzdi. Yüksək təşkilatçılıqla hazırlanan Azərbaycan Ordusunun və Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr olunan təntənəli paradları şəhərimizin sakinləri və xarici ölkələrdən gələn qonaqlar böyük maraqla izlədilər. Bundan əlavə, televiziya qarşısında milyonlarla insan bu paradı izləyərək hərbi qulluqçularımızın təcrübəsinə heyran qaldı.*

## Sıra hazırlığı

# Azərbaycan əsgəriyik...

Paradda iştirak edən hərbçilərimizin bölmələrlə səliqəli düzülüşü və təntənəli keçidi, həmçinin texnikaları idarə edən sürücülərimizin peşəkarlığı gərgin əməyin bəhrəsi idi. Arsenalımızda olan müasir silahların sərgiləndiyi və hərbçilərimizin yüksək ustalıq nümayiş etdirdiyi möhtəşəm parad hələ uzun illər hafizələrdə qalacaq.

"N" hərbi hissəsində olduğumuz zaman sıra meydanından gələn addım səsləri diqqətimizi cəlb etdi. Sıra addımı ilə irəliləyən əsgərlərin sinxron hərəkəti, ayaqların eyni anda yerə təmasından yaranan səs dalğası bir anlıq gözlərimin önündə Böyük Qələbəyə həsr olunacaq paradı canlandırdı. O an Ali Baş Komandan İlham Əliyevin dediyi kəlməni xatırladım. “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”. Bəlkə də, üçrəngli bayrağımızı Azadlıq meydanına gətirəcək əsgərlər elə bu sıralardadır. Məşğələni sona qədər izləyirik. Şəxsi heyətin sıra hərəkətlərini bacarıqla icra etməsi bölmədəki sıra hazırlığının səviyyəsindən xəbər verirdi.



Dərsin rəhbəri leytenant Asim Hüseynli ilə tanış oluram. Zabit sıra hazırlığının əsgərin xidməti dövründə vacibliyindən söz açdı. "Məlumdur ki, hərbi mədəniyyət xidmətin vacib şərtidir. Hər bir komandir əsgərdən birinci növbədə intizamlı olmağı tələb edir. Nizam-intizam isə sıradan başlayır. Əsgərlərlə söhbətim zamanı həmişə deyirəm ki, sıra və sıra meydanı müqəddəsdir. Ona görə müqəddəsdir ki, o sıralarda şəhidlərimiz də dayanıb, qəhrəmanlarımız da. Bölməmizdə günün nizam qaydasına uyğun olaraq sıra hazırlığı dərsləri keçirilir. Məşğələlərdə şəxsi heyətə hərbi xidməti boyunca zəruri olan hərəkətlər öyrədilir. Sıra nizamnaməsinə əsasən təşkil olunan dərslərdə şəxsi heyətə silahla və silahsız sıra hərəkətləri, əsgəri salamlaşma, hərbi qulluqçunun düzülüşdən qabaq və sıradakı vəzifə borcları və digər qaydalar öyrədilir. Keçirilən dərslər əsgərin hərbi mədəniyyəti öyrənməsində, yüksək döyüş ruhlu əsgər kimi formalaşmasında böyük rol oynayır".

Sonra əsgərlər Sadiq Həsənov, Elçin Əliyev, Mahir Məmişov, Sənan Məmmədov ilə həmsöhbət oluruq. Gənc Vətən müdafiəçilərimiz daim öz üzərlərində çalışdıqlarını, təcrübəli komandirlərinin rəhbərliyi ilə bilik və bacarıqlarını daim təkmilləşdirdiklərini söylədilər. Həmçinin əsgərlərimiz bildirdilər ki, müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək üçün keçirilən məşğələlərdə fəal iştirak edir və peşəkar komandirlərinin təcrübələrindən maksimum səviyyədə yararlanırlar. Sonda əsgərlər xalqın güvənc yeri olan ordumuzun sıralarında xidmət etməkdən qürur duyduqlarını fəxarətlə qeyd etdilər.

Hərbi hissəni tərk etməyimiz şəxsi heyətin axşam gəzintisi vaxtına təsadüf etdi. Əsgərlər bir ağızdan "Azərbaycan əsgəriyik, bu ada qurban!" deyirdilər. Onların ifasında Vətənə və xalqa sevgi hiss olunurdu, düşmənə isə nifrət...

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

*Əsgər dostluğu*

# Yaxşı dost ömrü gözəlləşdirir



Dost sözü çox şaxəli və dərin mənalıdır. Arasında qan bağı olmayan bu bağlılıq bəzən möhkəm və əbədi olur. Özümüzdən asılı olmayan səbəblərdən hərdən ailə üzvlərindən uzaqda yaşamağa məcbur oluruq. Lakin xasiyyətimizə, dünyaya baxış tərzimizə uyğun olaraq düşdüyümüz mühitdə özümüzə yaxın birini tapırıq. Elə insan ki, pis və yaxşı günlərində daim yanında olur, səsləyəndə köməyinə çatır. Həmin insan dost adlanır. "Dost dar gündə tanınar", "Dostun versə qum, al ovcunda yum!", "Dost yolunda can qurban" və digər atalar sözləri dostluğun nə qədər dəyərli olduğunun göstəricisidir. İnsan həyatı boyunca müxtəlif mühitlərdə fərqli dostlar qazanır. Bunların sırasında bağçada, həyatda birgə böyüdüyümüz, məktəbdə bir sinifdə təhsil aldığımız insanlar var. Bunlardan ən vacibi və önəmlisi isə əsgəri xidmətimizdə əldə etdiyimiz dostlardır. Əsgəri xidmətdə qazandığımız dostlar ömür dostudur. Silah dostu, həyat dostudur. Mütəmadi olaraq düşmənlə təmas xəttində olduğumuz zaman əsgərlərimiz arasında olan möhkəm, sarsılmaz dostluğun şahidi oluruq. Bu səfər də hərbi xidmətdə yaranan möhkəm dostluq haqqında komandirlərdən eşitdik. Çavuş Şahin Hüseynova bu dostları yaxından tanımaq, onlarla həmsöhbət olmaq istəyimizi bildirdik. Bəlkə də həyatın bir təsadüfüdür, bu dostların ikisinin adı Seymur, soyadları isə Məmmədovdur.

- Mülki həyatda hərbi xidmətdə yaranan dostluqlar haqqında çox eşitmişəm, - deyə əsgər Məmmədov Seymur Yavər oğlu söhbətə başladı. - Bir yerdə böyüdüyümüz, bir neçə yaş məndən böyük dostlarım hərbi xidmət haqqında danışardılar. Qazandıqları dostlardan, komandirlərin diqqət və qayğısından söz açardılar. Xidmətə gəldiyim ilk günlər bölmənin axşam yoxlaması zamanı başqa bölmədə də Seymur Məmmədov çağırdıqlarını eşidirdim. İlk vaxtlar özümdən asılı olmayaraq "mən" deyirdim. Sonra Seymurla tanış oldum. Hesab edirəm ki, öz oxşarımı tapmışam. Ayrı-ayrı bölmələrdə xidmət etsək də, asudə vaxtlarda söhbət edə bilirdik. Həmin vaxtlarda çalışırdıq ki, məşğələlərdə mənimsədiklərimizi bir-birimizlə bölüşək. Gənc əsgər hazırlığı dövrü bitdikdən sonra eyni bölməyə düşdük. İndi çox sevinirəm ki, həm dostum, həm də adaşımla eyni mövqedə xidmət edirəm.

"Dost mənim üçün qardaş qədər yaxındır. Bura elə bir yerdir ki, hər birimiz bir yumruq kimi birləşməliyik. Düşmənin ani həmləsi zamanı onun qarşısını ilk olaraq bölmənin şəxsi heyəti alır. Biz də doğma qardaşlar kimi yaxın olmalıyıq. Bir birimizi qorumalıyıq. Çünki burada bir yerdə yatır, bir qabdan yemək yeyir, birimiz yatanda digərimiz onun keşiyində dayanırıq. Hərbi xidmətə gəldiyim gündən özümə çox yaxın dostlar qazanmışam. Çalışacam harada olmağımdan asılı olmayaraq onlarla daima əlaqə saxlayım, şad və pis günlərində hər zaman yanlarında olum. Hər birimizin qəlbində bir sağalmaz yaramız var, o da düşmən tapdağında olan Qarabağımızdır. Çox istərdim ki, işğal olunan torpaqlarımızın azad olunmasında mən də dostlarımla birlikdə iştirak edim. Vətənimizin tarixinə düşmənə qarşı amansız döyüşən Seymur adlı dostlar kimi düşək", - əsgər Məmmədov Seymur Oqtay oğlu dedi.

Dostlar söhbət etdikcə onların bir-biri ilə səmimi davranışları nəzərimizdən qaçmadı. Ordumuzda mövcud olan sağlam mühit, sıralarında xidmət edən möhkəm və səmimi dostların olması torpaqlarımızın tezliklə düşməndən azad olacağından xəbər verir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**



# Gənc əsgərlər hərbi hissələrə qəbul olunub

Yeni hərbi xidmətə çağırılan gənclər Azərbaycan Ordusunun hərbi hissələrinə qəbul olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gənc əsgərlərə hərbi xidmətin xüsusiyyətləri, xidmət edəcəkləri hərbi hissə, günün nizam qaydaları və təhlükəsizlik qaydaları barədə ətraflı təlimat verilir. Hərbi qulluqçularla fərdi söhbətlər aparılır, psixoloji xüsusiyyətləri öyrənilir, əşya və əmlakla təmin olunurlar.

*Hərbi texnikalar, silahlar*

# OTS-14 "Qroza" (Tufan) kompleksi

*"Qroza" OTS-14 Rusiya istehsalı olan atıcı-qumbaraatan kompleksi özündə bull-pap sxemi üzrə hazırlanmış AKS-74U avtomatının qeyri-adi variantını təsvir edir. Onun üzərində "Kostyor" QP-25 qumbaraatanın bir neçə sadələşdirilmiş variantı quraşdırılıb.*



Onun belə quruluşlu olması güclü yığcam silahın yaradılmasına imkan verib. Avtomat və qumbaraatandan atəş açma yeganə buraxıcı qarmaqla idarə olunur. Avtomat-qumbaraatan rejiminə keçilməsi lülə qutusunun sağ tərəfində yerləşdirilmiş düyməli keçiricinin vasitəsi ilə yerinə yetirilir. Silah Kalaşnikov avtomatı səviyyəsində davamlıdır. 9x39 mm-lik SP-5 və SP-6 patronları səsbatırıcı ilə birlikdə birləşərək atəşin səssizliyini təmin edir. Onun 9 mm-lik gülləsinin (16 qram) böyük çəkili olması yüksək öldürücülük qüvvəsini və saxlama qabiliyyətini təmin edir. Yüksək atəş tezliyinə malik olması güclü mühafizəyə malik olan 3-cü dərəcəli zirehli geyimdə olan hədəfləri və sığınacaqlarda olan hədəflərin məhv edilməsini təmin edir. Silahın modul inşaya malik olması imkan verir ki, kompleks avtomata, hücum avtomatına, qumbaraatana və snayper tüfənginə çevirmək mümkün olsun.

Atıcı-qumbaraatan OTS-14 "Qroza" kompleksinin çəkisi 2,7 kiloqram, uzunluğu 720 mm, lüləsinin uzunluğu 240 mm, eni 60 mm, hündürlüyü 294 mm-dir. Silahın patronları 9x39 mm, kalibri isə 9 mm-dir. İşləmə prinsipi barıt qazlarının atımı hesabınadır. Atəş tezliyi isə dəqiqədə 700 atışdır. Güllənin ilkin sürəti saniyədə 300 metr, nişangah uzaqlığı isə 200 metrə qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**

# Xəbərlər: hadisələr, faktlar

## S-400 zenit-raket sistemlərinin Türkiyəyə ikinci tədarükü 2020-ci ildə başlayacaq



S-400 zenit-raket sistemlərinin ikinci partiyasının Türkiyəyə tədarükü 2020-ci ildə başlayacaq. Bunu Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir TGRT telekanalına müsahibəsində bəyan edib.

İ.Dəmir qeyd edib ki, zenit-raket sistemləri Türkiyənin özü tərəfindən idarə olunacaq. Onun sözlərinə görə, ABŞ bu sistemlərin F-35 qırıcıları ilə uyğun gəlmədiyi barədə heç bir sübut göstərə bilməyib. Türkiyə rəsmisi vurğulayıb ki, S-400-lərlə yanaşı, onun ölkəsi bir sıra hava hücumundan müdafiə texnologiyaları da əldə edəcək və onlar raket əleyhinə müdafiə sistemində istifadə olunacaq. Bundan başqa, Türkiyə ballistik raketləri vura biləcək "Hisar-A", "Hisar-O" və "Sipər" adlı raket komplekslərinin istehsalını da planlaşdırır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da S-400 zenit-raket sistemlərinin tədarükünün gələn ilin aprelində başa çatacağını bildirib.

## Yaponiya F-35 qırıcılarının uçuşlarını bərpa edir



Yaponiya apreldə baş vermiş qəzaya görə təlimləri dayandırılan F-35 qırıcılarının uçuşlarını avqustun 1-dən başlayaraq davam etdirəcək.

Qeyd edək ki, hazırda Yaponiya 12 ədəd F-35 qırıcısına malikdir.

Yaponiyanın müdafiə naziri Takeçi İvayanın sözlərini sitat gətirən agentlik yazır: "Uçuşlar yerli vaxtla saat 14:00-dan başlayaraq bərpa ediləcək və bu zaman təhlükəsizliyə xüsusi diqqət yetiriləcək". Bu tədbirlərə pilotların hazırlıq səviyyəsinin və qırıcıların texniki vəziyyətinin yüksəldilməsi daxildir.

Xatırladaq ki, aprelin 9-da Aomori prefekturasındakı Misava bazasından səmaya qalxan F-35A qırıcısı havada istiqamətgötürmə qabiliyyətini itirərək saatda 1100 kilometr sürətlə dənizə düşüb. Kütləvi-informasiya vasitələrinin bildirdiyinə görə, bu, dünyada F-35A qırıcılarının ilk qəzasıdır.

T.İvaya bildirib ki, həmin hadisəyə baxmayaraq, Yaponiya ABŞ-dan F-35A qırıcılarının alınmasını dayandırmayacaq. Hazırda bütün ölkə ərazisində 105 belə qırıcı yerləşdirilib.

## Şimali Koreya daha iki raket sınağı həyata keçirib



Koreya Xalq Demokratik Respublikası avqustun 2-də daha iki raket sınağı həyata keçirib.

Bu barədə Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahı məlumat yayıb.

Raketlər yerli vaxtla saat 2:59-da və 3:23-də Şimali Koreyanın şərqində yerləşən Yonqhunq bazasından Yapon dənizi istiqamətində buraxılıb. Raketlər 25 kilometr yüksəklikdə təxminən 220 kilometr uçublar. Güman olunur ki, bunlar qısa məsafəli ballistik raketlər olub.

## ABŞ-a məxsus qırıcı təyyarə qəzaya uğrayıb



ABŞ Hərbi-Dəniz Qüvvələrinə məxsus qırıcı təyyarə Çayna-Leyk bazasının yaxınlığında, "Ölüm dərəsi"ndə yerləşən "Ulduz müharibələri" adlı kanyonda qəzaya uğrayıb.

Qəza nəticəsində "Ölüm dərəsi" milli parkını ziyarət edən azı 7 nəfər xəsarət alıb.

Telekanal bildirir ki, kanyon aviasiya həvəskarları arasında kifayət qədər tanınmış yerdir, onlar burada təlim uçuşlarını seyr edirlər.

Hazırda hadisə yerində axtarış-xilasetmə işləri aparılır.

**AZƏRTAC-ın materialları əsasında**

### Azərbaycan

Mən könlümü təzəcə eşqə düşənlər kimi
Pıçıldamaq istərəm - eşidilməsin səsim.
Sevgi etirafımı, bu vurulan qəlbimi
Elə açmaq istərəm ki kimsə eşitməsin.

Eşqimi ovuc-ovuc torpağına, daşına
Səpərəm, qız başına şabaş səpənlər kimi.
Səni öpmək istərəm - düz on səkkiz yaşına
Təzəcə qədəm qoyan qızı öpənlər kimi.

Uğrunda həyatımı qurban vermək istərəm,
Eşqin təntənəsiyçün can qurban edən kimi.
Səni bütün dünyaya mən göstərmək istərəm
Sevdiyim qız kimi yox - sevdiyim Vətən kimi.

### Vətən

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Mən səndən adicə həyat istədim,
Sən məni çıxartdın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsil yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət.
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət, vüqar.
Mən də başı açıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə, buna görə əzəmətlisən -
Nəyin var vermisən əsirgəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən

### Yadıma sən düşürsən

Hər çiçəyin öz ətri,
hər gülün öz rəngi var,
Hər qəlbin öz istəyi,
öz sözü, ahəngi var.

Hər insan öz ömrünə
dost seçir, həmdəm seçir.
Mənimsə ürəyimdən
qəmli bir nisgil keçir,
Yadıma sən düşürsən.

Göydə bulud dolaşır
axşam düşür, yel əsir,
Heç bilmirəm nədəndir
könlüm belə tələsir.
Yollarına baxıram,
nə gələn var, nə gedən.
Qəlbimdəki intizar
nədir, düşünürəm mən.
Yadıma sən düşürsən.

Təklik üz verir mənə,
çıxıram otağımdan,
Sevgililər küçədə
deyib-gülür mehriban...
Onları belə xoşbəxt
belə məsud görəndə
Duyğular dalğa kimi
çırpınır bu sinəmdə,
Yadıma sən düşürsən.

### Bakı

Uzaq elli əziz dostum soruşdu
- Sizin Bakı söylə, necə şəhərdir?
Dedim: - Qardaş, mənim doğma şəhərim
Yazılmamış, oxunmamış əsərdir.

Çiçək desən - könül açan çiçəyi,
Külək desən - ev uçuran küləyi,
Qasırğada ağ dalğalar ləçəyi,
Sakit gündə gözü mavi Xəzərdir.

Nəğməsidir zavodların fit səsi,
Suya düşüb buruqların kölgəsi.
Ətirlidir bağlarının meyvəsi,
Ağ şanısı elə bil ki, şəkərdir.

*Könlüm şeir istəyir*

# Gecələr Ay olmaq istəyi

*Gecələr Ay olmaq istəyirdi... Şeir düşündürürsə, gözəldi. Şeir duyğuları tərpədirsə, gözəldi. Şeir könülə yatırsa, gözəldi. Əlağa Kürçaylının şeirləri həmişə belə oxunub, indi də belə oxunur. "Gecələr Ay olmaq istəyən" şairin işıqlı, nurlu bədii fikirlərinin, belə bədii fikirlərdən yaranan şeirlərinin mahiyyəti qaranlıqlara şair üsyanıdı. Əlağa Kürçaylı "Gecələr Ay olmaq istəyirəm" mən", - deyirdi. Şeirləri poetik düşüncələrimizin hilalı-dı - işığıdı...*

**"Azərbaycan Ordusu"**

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olur nifrəti,
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

### Demək, hələ mən varam!

Qüssəli çağlarında
Sənin dodaqlarında
Təbəssüm görünübsə,
Gülüşə bürünübsə,
Kədərlərin bir anda -
Bu uğurlu zamanda
Demək, hələ mən varam!

Ümid dumanda, çəndə
Səni atıb gedəndə,
Qəlbinə şölə kimi,
Kiçik bir gilə kimi
Təzə ümid dolubsa,
Belə günün olubsa,
Demək, hələ mən varam!

Qış şaxtadan qılıncı,
Çiynində ağ yapıncı
Əlini kəsən zaman,
Sərt yellər əsən zaman
Bir çiçək görmüsənsə,
Əyilib dərmisənsə,
Demək, hələ mən varam!

Baharınam xəzanda,
Bələdçinəm azanda.
İşığınam zülmətdə,
Həyatınam qürbətdə,
Sənin çətin anında
Mən hazıram yanında,
Demək, hələ mən varam!

### Yadına düşürəmmi?

Qaldı arxada artıq ömrün xoşbəxt illəri,
İndi mənim əlimə dəymaz sənin əllərin.
Söylə hərdən əsəndə soyuq payız yelləri,
Dağılanda üzünə o pərişan tellərin,
Deyirsənmi olaydıq eşqin gənclik yazında?
Heç olmasa xəyalın dumanlı aynasında
Səninlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?
Səadət fürsətini qaçırtdıq sən də, mən də,
Onu köhlən at kimi salmalıydıq kəməndə,
Hərdən sevda yolunu azıb dumanda, çəndə,
Sənə ümid verəcək bir işıq görməyəndə
Bələdçi olurammı cığırlar arasında?
Heç olmasa xəyalın dumanlı aynasında
Səninlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?

Gəl indi xatırlayaq bütün olanları biz,
Özümüz yazmalıykən hökmü biz, qərarı biz,
Taleyin əllərinə verdik ixtiyarı biz,
Günah kimdədir görən?
Mən bilmirəm! Barı biz
Bir nişanə qoymadıq xatirə dünyasında.
Heç olmasa xəyalın dumanlı aynasında
Səninlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?

### İzlər

Dünən qarın üstündə mən
Gördüm ayaq izlərimi;
Bəs o izlər itdi nədən
Bu gün günəş doğan kimi?

Üzərində qarlı yerin
İz salmaq çox asan olur.
Asan düşən o izlərin
Ömrü, ey dost, bir an olur!

Çətin olsa belə, çalış -
İzin düşsün daş üstünə;
Min odlu yay, min qarlı qış
Poza bilməz onu yenə!

### Qu quşunun nəğməsi

Deyirsən: "Məhəbbət şeirlərinin
Hamısı qısadır - bir bənd, iki bənd".
Deyirsən: "Deməli, şikəstdir sənin
Məhəbbət yolunda mindiyin səmənd".

Əzizim, doğrudur, məhəbbətimdən
Uzun söz açdığım olmayıb hələ;
Sevgi söhbətində çox xəsisəm mən.
Neynim, təbiətim belədir, belə...

Dostum, bu məzəmmət, bu giley nədir?
Qoy mən söz açmayım sevgimdən daha.
Qu quşu nəğməni bir ağız deyir,
Ömründə bir ağız...
Amma nəğmə ha!..

### Gecələr Ay olmaq istəyirəm mən

Məqamı çatıbsa, niyə gizləyim,
Qoy açıq söyləyim, yoxsa dərd olar:
Mənim gözlərimə baxan gözlərin
Bir an özgəsinə baxsa dərd olar.
Kim deyər dərdini sinəndə saxla!
Sən kükrə çay kimi, sel kimi çağla.
Kürçaylı, gözlərin dolubsa, ağla,
Göz yaşı ürəyə axsa dərd olar
Gecələr Ay olmaq istəyirəm mən

Gecələr Ay olmaq istəyirəm mən,
Pərdəli-pərdəsiz pəncərələrdən
Dolmaq istəyirəm neçə otağa.
Mən neçə süfrəyə, neçə çırağa
Baxmaq istəyirəm hamıdan pünhan
Səma tağlarının ucalığından.
Gecələr Ay olmaq istəyirəm mən...

Şirin laylaları ana dilindən,
Ana dodağından eşidim deyə.
Mən ağlı-qaralı neçə taleyə
Baxmaq istəyirəm ağarınca dan
Səma tağlarının ucalığından.
Gecələr Ay olmaq istəyirəm mən...

Bir günlük işindən qayıdıb gələn
Qabarlı əlləri öpmək eşqinə.
Yorğun röyaların şirinliyinə
Keşik çəkmək üçün sakit, mehriban
Səma tağlarının ucalığından.
Gecələr Ay olmaq istəyirəm mən...

Sevən ürəklərin məhəbbətindən
Səma ucalıqda pay almaq üçün,
Ən yüksək qübbəyə ucalmaq üçün...
Ordan nur səpərəm mən incə-incə
Bu ana torpağa dan sökülüncə.
Nahaq yaranmayıb bu arzu məndə.
Bəzən gecələrin sakitliyində
İnsan öz qəlbiylə edir həsb-hal,
Keçir ürəyindən min arzu, xəyal.
Bununçün ayrılıb öz xislətimdən
Gecələr Ay olmaq istəyirəm mən.

# İdman

## Güləş üzrə dünya çempionlarımız Rumıniyada keçiriləcək beynəlxalq turnirdə mübarizə aparacaqlar



Avqustun 2-dən 4-dək Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə Yon Kornianu və Ladislav Simonun adına həsr olunmuş beynəlxalq turnir keçiriləcək.

Ölkəmizi bu yarışda üç yunan-Roma güləşçisi təmsil edəcək. Ənənəvi turnirdə məşqçi Emin Əhmədovun rəhbərliyi ilə dünya çempionlarımız Eldəniz Əzizli (55 kq) və Rəsul Çunayev (72 kq), eləcə də Beka Kandelaki (130 kq) mübarizə aparacaqlar.

## Murad Haqverdiyev dünya çempionatında bürünc medal qazanıb



Azərbaycan güləşçisi Murad Haqverdiyev Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında bürünc medal qazanıb.

Yarışda 45, 51, 60, 71 və 92 kiloqram çəki dərəcələrində çıxış edən sərbəst güləşçilər mübarizə aparıblar.

Pəhləvanımız Murad Haqverdiyev (45 kq) dünya çempionatına inamlı qələbə ilə başlayıb. Avropa Gənclər Olimpiya Festivalının qalibi ilk görüşdə Gürcüstan idmançısına 10:0 hesabı ilə vaxtından əvvəl qalib gəlib. Rusiyalı rəqibi üzərində də əzmkar qələbə qazanan M.Haqverdiyev adını yarımfinala yazdırıb - 9:4. Ancaq bu mərhələdə iranlı güləşçiyə 0:5 hesabı ilə uduzan Murad iyulun 31-də bürünc medal uğrunda mübarizə aparıb. Qırğızıstan təmsilçisi ilə görüşdə əzmkar mübarizə ortaya qoyan Gəncə güləş məktəbinin yetirməsi son saniyələrdə icra etdiyi fəndlə hesabda önə keçərək dünya üçüncüsü olub - 10:8.

## Bakının "Neftçi" komandası "Arsenal"ın (Tula) qapısından üç cavabsız top keçirib



Bakının "Neftçi" futbol klubu UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin cavab oyunları çərçivəsində "Arsenal"ı (Tula, Rusiya) məğlub edib.

"Bakcell Arena"da keçirilən görüşdə "Neftçi" rəqib qapısından üç cavabsız top keçirib. Bakı təmsilçisinin heyətində Rauf Əliyev, Dario Frederiko və Mamadu Mboj fərqləniblər. Komandalar arasında Tulada keçirilən ilk oyunda "Neftçi" 1:0 hesabı ilə qalib gəlib. İki oyunun nəticəsinə görə, "Neftçi" UEFA Avropa Liqasının üçüncü təsnifat mərhələsinə yüksəlib.

Qeyd edək ki, "Neftçi" birinci mərhələdə Moldovanın "Speranta" komandasını mübarizədən kənarlaşdırıb.

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi "Tokio 2020"yə lisenziya xarakterli təsnifat turnirində ilk oyununu keçirib



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakterli təsnifat turnirində ilk oyununu keçirib.

24 yığma komandanın çıxış edəcəyi turnirdə Azərbaycan millisi "D" qrupunda Braziliya, Dominikan Respublikası və Kamerun ilə birgə yer alıb. Yığmamızın yer aldığı qrupun oyunları Braziliyanın Uberlandiya şəhərində təşkil olunub. Komandamız ilk görüşündə Dominikan Respublikası ilə qarşılaşıb. Qarşılaşma rəqib komandanın 3:0 hesablı qələbəsi ilə başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 538
Nüsxə 3950